UOT 376.

***Günel Qadir qızı Əhmədova***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun böyük elmi işçisi*

# İNTELLEKTUAL PROBLEMLİ UŞAQLARDA OYUN FƏALİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ

***Гюнель Гадир гызы Ахмедова***
*старший научный сотрудник Института Образования Азербайджанской Республики*

# ОСОБЕННОСТИ ИГРОВОЙ ДЕЯТЕЛЬНОСТИ У ДЕТЕЙ С ИНТЕЛЛЕКТУАЛЬНЫМИ ПРОБЛЕМАМИ

***Gunel Qadir Ahmedova***
*senior researcher of the Institute of Education of the Republic of Azerbaijan*

# CHARACTERISTICS OF GAMES FOR CHILDREN WITH INTELLECTUAL DISABILITIES

**Xülasə.** Məqalədə qeyd edilir ki, oyun, yaxın inkişaf zonasının aparıcı fəaliyyətidir və uşaqların psixoloji portretinin formalaşması onun inkişafından asılıdır. İntellektual problemli uşaq məktəbəqədər müəssisəyə daxil olarkən oyun oynamağı bacarmır və bunu korreksiya etmək üçün onların oyun fəaliyyətinin xüsusiyyətlərini bilmək vacibdir.
***Açar sözlər:*** *intellektual problem, inkişaf, oyun, təlim, oyuncaqlar.*

**Резюме:** Данная статья посвящена проблеме игровой деятельности у интеллектуально проблемных детей. Игра является ведущей деятельностью зоны ближайшего развития и от этого зависит формирование психологического портрета ребенка. При поступлении интеллектуально проблемных детей в дошкольное учреждение, обычно обнаруживается, что они совершенно не умеют играть в игры. Для проведения коррекционной работы в этой сфере необходимо знать особенности игровой деятельности детей данной категории.
***Ключевые слова:*** *интеллектуальные проблемы, развитие, игра, обучение, игрушки.*

**Summary:** This article is devoted to the problem of gaming activities in intellectually troubled children. The game is the leading activity of the area of near development and the formation of a psychological portrait of a child depends on it. When intellectually troubled children enter preschool, it is found that they do not know how to play games. To carry out corrective work in this area, you need to know the features of children's play activities in this category.
***Keywords:*** *intellectual problems, development, play, training, toys.*

Oyun yaxın inkişaf zonasını inkişafını təmin edən əsas aparıcı fəaliyyət olmalıdır ki, intellektual problemli uşaqların psixoloji portretinin formalaşmasına təsir göstərsin.

İntellektual problemli uşaqlarda oyun fəaliyyətinin sərbəst və ardıcıl formalaşmasını tormozlayan çoxsaylı səbəblərdən biri və əsası kimi beyin qabığının inteqrativ fəaliyyətinin inkişafsızlığını qeyd etmək lazımdır. Bu inkişafsızlıq bir sıra funksiyaların (statik funksiyalar, nitq, böyüklərlə emosional ünsiyyət) mənimsənilməsini gecikdirmiş olur. Oyun fəaliyyətinin formalaşmasına mənfi təsir göstərən amillərdən biri də deprivasiyadır. Deprivasiya – uşağın inkişafı üçün lazım olan pedaqoji şəraitin olmamasıdır. İntellektual problemli uşaqlarda deprivasiya halları çox vaxt onların bağlı tipli uşaq müəssisələrində qalmaları səbəb olur. Ehtiyac olan yeni emosional təəssürat axınından məhrum olan intellektual problemli məktəbəqədəryaşlı uşaqlar ətraf aləm haqqında məlumatı dar çərçivə arasında qəbul edir; onun həyatı məhdud

və monoton şəraitdə keçir. Beləliklə, mövcud olan orqanik qüsurdan başqa bu kateqoriyadan olan uşaqlarda ətraf aləm haqqında anlayışları kasad və təhrif edilmiş olur.

Xüsusi məktəbəqədər müəssisəyə daxil olarkən kiçikyaşlı intellektual problemli uşaqlar adətən tamamilə oyun oynaya bilmirlər, oyuncaqlarla onların funksional təyinatından asılı olmayaraq yalnız bir cür manipulyasiya edirlər. Belə ki, uşaq uzun müddət ərzində eyni templə kub, ördək, maşını bir yerə vura bilər.

Burada bu uşaqların gəlinciyə digər oyuncaqlarla müqayisədə eyni münasibət göstərmələri diqqəti cəlb edir. Gəlincik insanı əvəz edən personaj kimi qəbul edilmir və adekvat sevinc hissi yaratmır. Digər oyuncaqlara qarşı da (məsələn heyvanlar) intellektual problemli uşaqların emosional marağı yaranmır. Bu oyuncaqlarla da uşaqlar adi kub və ya maşın kimi manipulyasiya edə bilirlər. Qeyd etmək lazımdır ki, bu kateqoriyadan olan uşaqlar arasında oyuncağın "dadına" baxmağı xoşlayanlar da tapılır. Onlar rəngli kubun qırağından dişləməyə, gəlinciyi yalamağa çalışırlar. Bu cür hərəkətlər əsasən dərin intellektual problemi olan uşaqlara xas edilir. Yalnız bəzən onlar oyuncaqla necə rəftar edəcəklərini bilmədikləri, təcrübələrinin olmaması üçün bu cür hallar baş verə bilər.

İntellektual problemli məktəbəqədər yaşlı uşaqların böyük əksəriyyətində qeyri-adekvat manipulyasiyalardan başqa, həm də prosessual hərəkətlər – uşaq eyni oyun hərəkətini dayanmadan təkrar edir: məsələn, gəlinciyin geyimini soyundurub geyindirir, kublardan tikinti tikir və dağıdır, qab-qacağı götürüb yerinə qoyur və s. müşahidə olunur.

Müşahidələr göstərir ki, oyun prosesində intellektual problemli uşaqlar oyuncaqlarla səssiz oynayır, yalnız hərdən ayrı-ayrı emosional səslər çıxararaq bəzi oyuncaqların adlarını ifadə edən sözləri tələffüz edirlər.

Təlim almayan intellektual problemli uşaqlar oyuncaqlardan tez yorulurlar. Adətən oyuncaqlarla oynama müddəti on beş dəqiqədən artıq olmur. Bu oyuncaqlara əsl marağın olmamasından xəbər verir. Bir qayda olaraq oyuncağın yeniliyinə həyəcanlanan uşaq onunla manipulyasiya edəndən sonra marağı tez sönür.

Xüsusi təlim olmadan oyun, intellektual problemli uşaqlarda mərkəzi yeri tuta bilmir və bununla uşağın psixi inkişafına təsir edə bilmir. Oyunun bu formasında mövcud olan qüsurların korreksiya və kompensasiyasından söz belə gedə bilməz.

Oyun fəaliyyətinin formalaşmasında üç istiqamət qeyd edilir: 1) süjetli-rollu oyunların öyrədilməsi; 2) hərəkətli oyunlar; 3) didaktik oyunlar. Qeyd etdiyimiz birinci istiqamət üzrə məşğələləri defektoloq və tərbiyəçi tərəfindən aparılır. Digər iki istiqamət üzrə məşğələləri əksər hallarda tərbiyəçilər aparır.

Pedaqoq uşaqlarda oyun bacarıqlarını və əsasən də rollu oyunları (davranışı) intensiv formalaşdırır. O uşaqları birgə oyuna daxil edir və ya kiçik hekayə şəklində süjet təklif edir.

Pedaqoq qarşısında uşaqların yaradıcılıq fəallığını stimullaşdırmaq kimi məsələ durur. Belə ki, pedaqoq tərəfindən oyuna müxtəlif rollar daxil edilir: sosial həyatın fərqli sahələrindən, müxtəlif ədəbi əsərlərdən, nağıllardan və s. Burada nağıl personajlarının real personajlarla əlaqələndirilməsi məsələsi də durur.

Ümumi süjet xəttinə bu cür rolları daxil edərək biz, uşaqların təxəyyülünü, fantaziyalarını aktivləşdirmiş oluruq. Uşaqlar yeni, gözlənilməz hadisələr fikirləşməyə təhrik olunurlar, bu da öz növbəsində müxtəlif personajların qarşılıqlı münasibətlərini daha da müsbət hal almasına imkan verir. Bu zaman da, tərbiyəçi oyun zamanı uşaqların maraqlarını nəzərə almalıdır, çünki bəzi hallarda birgə oynayarkən reallaşdıra bilmədikləri situasiyalar olur.

Maraqlı oyunlar uşaqları gümrahlaşdırır, sevincli əhval ruhiyə yaradır, uşaqların həyatlarını daha da dolğunlaşdıraraq onların aktiv fəaliyyət ehtiyaclarını ödəyir. Hətta əlverişli həyat şəraitində, uşağın düzgün və tam qidalanmasına baxmayaraq əyləncəli oyundan məhrum olarsa yaxşı inkişaf etməyəcəkdir.

Oyunların böyük əksəriyyəti müxtəlif peşələrdə çalışan insanların əməyinin təsvirinə həsr olunur. Burada bir neçəsini sadalamaq istərdik: demək olar ki, bütün oğlan uşaqları təyyarə idarə edirlər, yeni tikililər tikir, yeni şəhərlər salır; qızlar gəlinciklərə yemək bişirir, onların saçını kəsir, iynə vurur, müalicə edirlər və s. Beləliklə, oyun vasitəsi ilə uşaqların müxtəlif peşələrə olan maraqları dərinləşir və əməyə hörmətləri artmış olur.

Tərbiyəçinin öhdəsinə düşən vəzifə - oyunların maraqlı və zəngin keçməsi üçün uşaqlara oyunun təşkilində köməklik göstərməkdir.

Uşaqların oyun fəaliyyətinə təsir edən metodları müəyyənləşdirmək üçün onların oyun seçərkən nəyə üstünlük verməklərini, məhz müəyyən qəhrəmanı yamsılamağın səbəbini, müəyyən situasiyanın təsvir etmələri öyrənmək lazımdır.

Çoxsaylı tədqiqatlar göstərir ki, oyunun seçiminə uşağın keçirdiyi emosiyalar az təsir etmir. Uşaq gündəlik həyatda yaşadığı təəssüratları, yaxın insanlara qarşı keçirdiyi hissləri, və yeniliyi ilə onu cəlb edən hadisələri oyunda əks etdirməyə ehtiyac duyur.

Tərbiyəçinin öhdəsinə düşən vəzifələrdən biri də, çoxsaylı həyat hadisələrindən ən parlaq və müsbət şəkildə yadda qalan təəssüratları seçmək və onu oyun süjetinə daxil etməkdə köməklik göstərməkdir. Pedaqoqların qeyd etdiyi təcrübələrindən deyə bilərik ki, oyunun idarə etməsinin yeganə və düzgün yolu uşaqlarda hər hansı həyat situasiyasına maraq yarada bilmək, uşaqların hissləri və təxəyyüllərinə təsir etməkdir.

Oyunun maraqlı alınması üçün uşaqların yalnız binanın necə tikildiyini, yüklərin necə daşınıldığını görmək kifayət etmir. Bununla kifayətləndikdə, uşaqlar əməyin mənasını anlamadan yalnız böyüklərin hərəkətlərini yamsılayacaqlar. Nəticə olaraq oyun kasad və səthi olacaq. Uşaqları həyat hadisələri, əmək qəhrəmanlıqları ilə həyəcanlandırmaq lazımdır ki, onlar həvəslə onları yamsılamaq istəsinlər.

Oyun seçimində pedaqoq uşaqların maraqlarına və onların təsəvvürlərinə arxalanaraq qərar verir. Müxtəlif priyomlarla o uşaqların hafizəsində gördükləri və oxuduqları hadisələri canlandırır. Kiçikyaşlı uşaqlar üçün əyani yadasalma daha effektivdir. Məsələn, pianino oyuncağı uşaqda musiqi məşğələsi keçirtmək fikirləri oyadır, hər hansı heyvan oyuncağı tanış nağılı yada salır və s. Bəzən, uşaqlara oyuna ideya kimi, kukla teatrı və ya oyuncaqlar teatrı göstərmək olar. Səhnəni təkrarlayaraq uşaqlar gördüklərini öz şəxsi təcrübələri ilə birləşdirərək ona bəzi dəyişikliklər gətirə bilirlər: məsələn, Aybolit həkim zökəm xəstəliyinə tutulmuş heyvanları yox, gəlinciklərі müalicə edir.

Oyunun təşkili zamanı tərbiyəçi qarşısında bir sıra çətin məsələlər durur: hər bir uşaq oyunda əsas rolda olmaq istəyir, ancaq hər kəs başqasının fikri ilə hesablaşa bilmir, mübahisələri ədalətli şəkildə həll edə bilmir. Oyunçuların müəyyən rollara seçimi zamanı tərbiyəçidən böyük diqqət tələb olunur. Hər bir uşaq eyni dərəcədə bir rolun öhdəsindən gələ bilməz. Buna baxmayaraq, bütün uşaqlarda fəallıq və təşkilatçılıq bacarığını inkişaf etdirmək vacibdir.

Təcrübəli tərbiyəçi oynayan uşaqları diqqətlə müşahidə edir. Tərbiyəçi gəzə, ayaq üstə dayana, otura bilər, yalnız hansı mövqeyi tutmağından asılı olmayaraq bütün uşaqları görmə əhatəsində saxlamalıdır. Sərbəst oyun zamanı hər bir uşağa tərbiyəçi ən az 3-5 dəfə yaxınlaşa və müraciət edə bilər; darıxan uşaqla “gizlən qaç” oyunu oynaya, onu sığallaya bilər; digərinə piramidanı necə yığıldığını göstərməli; başqasının geyimini səliqəyə salıb onunla metro gəzintisindən sonra təəssüratları haqqında danışa bilər.

Sərbəst oyunun təşkili zamanı tərbiyəçi uşaqlarla öz arasında xeyirxah münasibətlərin yaranmasına böyük önəm verməlidir. Tərbiyəçi uşaqlara didaktik və hərəkətli oyunu birgə necə oynamalı, birgə şəkillərə baxmağı, yıxılan yoldaşına köməklik göstərməyi öyrətməlidir. Uşaqlarla sakit, səbirli davranmalıdır. Tərbiyəçi və digər işçilər tərəfindən uşaqlara qarşı qıcıqlanma, uca səs tonundan istifadə və daimi məzənnələr yolverilməzdir. Tərbiyəçinin nitqi (davranışı) uşaqlar üçün təkcə nümunə deyil, həm də pedaqoji müvəffəqiyyət ondan asılı olur.

Məşhur pedaqoq A.P. Usova qeyd etmişdir ki, məktəbəqədər qrup birgə oyundan yaranan ilk özünəməxsus uşaq cəmiyyətidir. Burada uşaqlar sərbəst şəkildə bir biri ilə birləşərək kiçik və ya böyük qruplar yaratmaq imkanına malikdirlər. Məhz bu birgə oyunlar zamanı uşaqlar sosial təcrübəyə yiyələnmiş olurlar.

Məktəbəqədər yaş dövründə oyun uşaq həyatının təşkilində əsas rol oynayır. Burada uşaqlar bir birinə təsir edir və həyat vərdişlərini əldə edirlər. Uşaqlararası münasibətlərin, onların bacarıqlarının öyrənilməsi üçün təşkil olunmuş kiçik qruplar ideal şərait yaradır. Oyun keçirilən zaman uşaqların əlavə mübahisələrsiz öz aralarında rolları bölə bilmələri və oyunun bütün qaydalarına riayət etmələri çox vacib faktorlardandır.

Oyunda uşaq şəxsiyyətinin bütün sferaları birgə şəkildə və qarşılıqlı təsir altında formalaşırlar. Uşaqları oyuna cəlb edərək onlarda mehriban kollektiv anlayışını, yoldaşlıq hisslərini,

təşkilatçılıq bacarıqlarını tərbiyə etmiş oluruq. Bu oyunlarda böyüklərin əməyi, onların xoşniyyətli davranışları və qarşılıqlı münasibətləri özünü əks etdirir. Öz növbəsində, yalnız yaxşı təşkil olunmuş uşaq kollektivində, hər bir uşağın ayrı ayrılıqda yaradıcılıq qabiliyyətini, onun fəallığını inkişaf etdirmək mümkündür. Oyun həm uşağın gələcəyə hazırlığı, həm də onun bu günki həyatda tam və xoşbəxt yaşaması deməkdir.

**Məqalənin aktuallığı** ondan ibarətdir ki, intellektual problemli uşaqların şəxsiyyətinin formalaşmasında oyun fəaliyyətinin rolu çox vacibdir. Bu kateqoriyadan olan uşaqların oyun fəaliyyətinin formalaşdırılmasını uğurla keçirtmək üçün, onun xüsusiyyətlərini dəqiq bilmək vacibdir. Bu məqalədə oyun fəaliyyətinin xüsusiyyətləri nəzərdən keçirilir.

**Məqalənin elmi yeniliyi.** Xüsusi bağça şəraitində intellektual problemli məktəbəqədər yaşlı uşaqların oyun fəaliyyətinin formalaşdırılmasında sistemlilik və məqsədyönlülük əsas tutulmalıdır. Bu zaman uşaqlarda ətraf aləm haqqında təsəvvürlərin genişlənməsi, sensor təcrübənin zənginləşməsi, nitqin aktivləşməsi, ümumiyyətlə korreksiyaedici işin effektivliyi artmış olacaqdır.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalədə verilən praktik məsləhətlər korreksion təlim-tərbiyə işində nəzərə alına bilər.

**Ədəbiyyat:**

1. Qasımov S., Kərimova E. Əqli və fiziki inkişafı ləngiyən uşaqların diaqnostikası və korreksiyası. Bakı, 2004.
2. Баряева Л.Б., Зарин А Обучение сюжетно-ролевой игре детей с проблемами интеллектуального развития. СПб., 2001.
3. Екжанова Е.А., Стребелева Е.А. Корекционно – развивающее обучение и воспитание дошкольников с нарушением интеллекта: Методические рекомендации. М.: Просвещение, 2009.
4. Михайленко П.Я. Формирование совместных действий // Дошкольное воспитание. 1987, № 6

**E-mail**: gunelahmedova@yandex.ru

**Rəyçi**: *dos.* **M.S. Kazımov**

**Redaksiyaya daxil olub:** 02.09.2019.